

BALAYAR SADİQ

# SƏNSİZLİK MƏKTUBLARI

*(mini sonet çələngi)*

## I

Sən gedən yolların baxışlarında,
Əcəl kəndiri tək yellənir həyat.
Səni pıçıldayır sinəmdə ölüm,
Gəl bu pıçıltını ətrinlə oyat.

Adın doluxsunub dodaqlarımda,
Cavabsız məktubdu gözümün yaşı.
Bir nəfəs yaxın gəl, ay ömrüm-günüm,
Gəl sənin zülmündən sənə danışım.

Fələyin daşları ağlar başımda,
Sinəmə çəkdiyin dağlar başında,
Gülür sənsizliyin ayaq izləri.

## II

Gülür sənsizliyin ayaq izləri,
Yollar xəcalətdən baxmır üzümə.
Çiçəyi çırtlayıb ayrılıqların,
Bunu dərd eləyib ömrünü üzmə.

Ovcumda bir ovuc səsin üşüyür,
Əlim çatmır onu isidim bir az.
Axirət dünyası, Sirat körpüsü -
Mənə məktubları bu ünvana yaz.

Gəl ta ayrılığın saçlarını yol,
Sənsizlik içində titrəyən bu yol,
Sahildə can verən balıq kimidir.

## III

Sahildə can verən balıq kimidir,
Yanaqda çırpınan bir cüt göz yaşı.
Sənin saçlarının qaranlığında,
Mənim əllərimin azıb yaddaşı.

Yağışı başlayıb xatirələrin,
Varağın üstündə adın islanır.
Qiyamət odunu geyib əyninə,
Gözümdə bir misra qadın islanır.

Qərib oxşamadı, qərib ağıdır,
Kövrək duyğuların hıçqırığıdır,
Dodaqda çırpınan dodaq izləri.

## IV

Dodaqda çırpınan dodaq izləri,
Dodağı qurumuş sözdü, sətirdi.
Küləyin üzündən öpürəm hər gün,
Bir ovuc ətrini bəlkə gətirdi.

Sənin həsrətindən köksünü tutub,
Varaqlar üstündə misra qıvrılır.
Gəl dinsiz könlümdə ibadətə bax,
Gah küfr eyləyir, gah namaz qılır,

Səbrin çöllərində iməkləyir can,
Ayrılıq alovu üşüdür yaman,
Açıbdı yaxanı həsrət küləyi.

V

Açıbdır yaxanı həsrət küləyi,
Qiyamət odu tək soyuqsan, gəlin.
Mən ki, bir yeriyəm eşq məzarıyam,
Dur, oxşa boyumu, isinsin əlin.

Yel vurur, ulayır sarı saçların,
Qorxusu qımışır ta qiyamətin.
Küçələr dopdolu naz içindədir,
Bir misra bu nazın endir qiymətin.

Göz yaşı qoxuyur sinəmdə ürək,
Həsrətin bəzənib sənin özün tək.
Nazlanır ömrümün yolları üstə

VI

Nazlanır ömrümün yolları üstə,
Ətrinə bələnmiş bir dəli misra.
Bu şeirirn içində duran adamın,
Bir əli ayrılıq, bir əli misra.

Dərd durub sinəmdə üzü qibləyə,
Üşüyür saçımda bir payız yolu.
Günahın gözündən öpüb gəlmişəm,
Bir misra gülümsə, qurbanın olum.

Soldu gözlərimdə, soldu həyat da,
Yıxılıb yolların ayağı altda,
Səbrim çiliklənib, ahım dağılıb.

VII

Səbrim çiliklənib, ahım dağılıb,
Sən gedən yolların dodağı üstə.
Əcəl varaqlayır göz yaşlarımı,
Sinəmə çəkdiyin bir dağın üstə.

Dilimdə sözlərin ürəyi gedib,
Adını oxşayıb çağırmaq olmur.
Hər sarı saçlının ayaq səsindən,
Asfaltın üstünə dağıldı ömür.

Könül, bu ağrıya başını qoy, yat,
Hər gün damcılayır içimdən həyat,
Qəmli misraların qolları üstə.

VIII

Qəmli misraların qolları üstə,
Can verən şairin adın soruşma.
Hər gün məzarını ziyarət eylər,
Bir-iki "gəraylı" beş-altı "qoşma".

Ürəyim yıxılıb sənin adından,
Adın ürəyimdən heç yıxılmadı.
Hər gün çiçəkləyir misralarımda,
Kədərin ləzzəti, həsrətin dadı.

Bu ömrün payızı, bu bəxtin qışı,
Ümid yollarının alnı qırışıb,
Əli xınalanıb qəmin, kədərin.

IX

Əli xınalanıb qəmin, kədərin.
Gözümdə adını zikr edir sular.
Ucur sənsizliyin səhralığından,
Qonur göz yaşıma susuz arzular.

Ümid itkin düşüb bəxt yollarında,
Alnımdan misralar keçir bulud tək.
Arxanca yüyürən ayaq izləri,
Parça-parça olmuş ürəkdir, ürək...

Ümid əldən gedib, gəlmir özünə,
Dərdi sürmə kimi çəkib gözünə,
Gülür baxışları qəza-qədərin.

X

Gülür baxışları qəza-qədərin,
Yamaq-yamaq olub ümid köynəyi.
Çoxdandı üzündə misralarımın,
Bir əlçim təbəssüm yeri göynəyir.

Həsrətin alnına yazılıb adın,
Ta onu silməyə yetmir əllərim.
Sinəmin üstündə boynunu büküb,
Kövrəlib mənim tək yetim əllərim.

Üşüyür yolların xınalı səsi,
Qızarır bəxtimin qanlı sinəsi,
Həsrət dağlarına yaz gəlib bu gün.

### XI

Həsrət dağlarına yaz gəlib bu gün,
Qəlbimin ahıdır açan çiçəklər.
Misramın gözündə yaş pıçıldayır;
İlahi, ümidim haçan çiçəklər.

Üz verdim yoluna, yol üz vermədi,
Uçdu çiçək-çiçək bu ömrün dadı.
Sənsizlik içində dəfn olunmuşun,
Bir yol soruşmadın qəbri hardadı.

Tanrıya məktubdur sevgi kitabım,
Ta dərdə dözmyə qalmadı tabım,
Yıxılır səbrindən səbrin ucası.

### XII

Yıxılır səbrindən səbrin ucası,
Astaca qar yağır sözün dilinə.
Çevirmək olmadı həsrət odunu,
Ocaqda üşüyən közün dilinə.

Sənin saçlarının qəh-qəhəsinə,
Uzanıb şerimin misra əlləri.
İndi buz bağlayan varaqlar üstə,
Əl-misra isidir, misra-əlləri.

Adını həsrətlə sıxıb köksünə,
Hopub sənsizliyin rəngi üzünə,
Solub ilmə-ilmə ömür xalçası.

### XIII

Solub ilmə-ilmə ömür xalçası,
Solğun naxışların rəngi üşüyür.
Sənsiz işğal olmuş Vətən kimiyəm,
Ruhumda bir ovuc "Cəngi" üşüyür.

Ahımdan od tutub səma alışdı,
Utana-utana uçur mələklər.
Vurulub dərdimin gözəlliyinə,
Durub tamaşaya göydə fələklər.

Gör necə qımışır bu əlhəd daşı,
Ayrılıq insafsız, ürəyim naşı,
Arzular həsrətdən kövrəlib bu gün.

### XIV

Arzular həsrətdən kövrəlib bu gün,
Yazım yazıq oldu, yazı yiyəsi.
Bəxtimi çöllərə salana söylə,
Bu ömrün içində azıb yiyəsi.

Payız yarpağı tək tökülüb illər,
Bircə naxışı da qalmadı vaxtın.
Görən qulağına nə pıçıldayım,
Açılsın ürəyi bu qara baxtın.

Hardan hara çəkim sürgün ömrümü,
Həsrət daşa basır hər gün ömrümü,
Sən gedən yolların baxışlarında.

### XV

Sən gedən yolların baxışlarında,
Gülür sənsizliyin ayaq izləri.
Sahildə can verən balıq kimidir,
Dodaqda çırpınan dodaq izləri.

Açıbdı yaxanı həsrət küləyi,
Nazlanır ömrümün yolları üstə.
Səbrim çiliklənib ahım dağılıb,
Qəmli misraların qolları üstə.

Əli xınalanıb qəmin, kədərin,
Gülür baxışları qəza, qədərin.
Həsrət dağlarına yaz gəlib bu gün.

Yıxıldı səbrindən səbrin ucası,
Solub ilmə-ilmə ömür xalçası,
Arzular həsrətdən kövrəlib bu gün.

